

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 209 (21.870)

3 noyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliya Senatının sədr müavini xanım Linda Lanzillottanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev noyabrın 2-də Monteneqronun xarici işlər naziri Srcan Darmanoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Rusiya Federasiyası Federasiya Şurasının sədrinin müavini, ikitərəfli komissiyanın həmsədri İlyas Umaxanovu və Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri Xizri Şixsaidovu qəbul edib.

* * *

Dövlətimizin başçısı noyabrın 2-də Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, Xalq artisti, Dövlət mükafatı laureatı Rauf Abdullayevə "İstiqlal" ordenini təqdim edib.



## Naxçıvan məhsulları Türkiyəyə güzəştli şərtlərlə ixrac olunacaq

### *Biznes Mərkəzində keçirilən tədbirdə bu barədə danışılıb*



***Məlum olduğu kimi, ötən günlərdə Türkiyə Respublikasının qəbul etdiyi qərara əsasən Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullar güzəştli şərtlərlə həmin ölkəyə ixrac ediləcək. Dünən Naxçıvan Biznes Mərkəzində bu məsələ ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən sahibkarlara təqdimat keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov bildirib ki, muxtar respublikanın artan iqtisadi potensialı burada istehsal olunan ixracyönümlü məhsulların dünya bazarına çıxarılmasına geniş imkanlar açıb. Nazir qeyd edib ki, son illərdə aparılmış məqsədyönlü tədbirlərin nəticəsi kimi muxtar respublikada ümumi daxili məhsul istehsalı 59, sənaye məhsulunun həcmi 103, kənd təsərrüfatının ümumi məhsulu 11, xarici ticarət dövriyyəsi 24 dəfə artıb. Ümumi daxili məhsulda özəl bölmənin payı 87 faizi ötüb. 1990-cı illərin əvvəlləri ilə müqayisədə bu gün Naxçıvanda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 11 dəfə artaraq 442-yə çatıb ki, onların da 60-ı ixrac potensialına malikdir. Beynəlxalq standartlara uyğun avadanlıqlarla təchiz edilmiş bu müəssisələrdə 371 növdə yüksəkkeyfiyyətli məhsul istehsal olunur.

Vurğulanıb ki, bu gün Naxçıvanda istehsal olunan mineral sular, vafli məmulatları, daş məhsulları, sement, məsaməli beton, gips, gön-dəri, travertin məhsullarının Türkiyə, Gürcüstan, Qətər, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya kimi ölkələrə ixracı həyata keçirilir.

Bildirilib ki, Naxçıvanın artan ixrac potensialı və qardaş Türkiyə Respublikasının qonşu vilayətləri arasında ticarət əlaqələrinin inkişafı üçün geniş imkanların olduğu nəzərə alınaraq Azərbaycan və Türkiyə arasında əldə edilmiş razılığa əsasən muxtar respublikaya güzəştli ticarət rejiminin tətbiqi barədə qərar qəbul olunub. Qeyd edilən qərar muxtar respublikada istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının Türkiyənin istənilən bölgəsinə idxal rüsumları ödənilmədən ixracına şərait yaradır. Bu isə, öz növbəsində, yerli istehsalçıların məhsul ixracı imkanlarını genişləndirəcəkdir. Xüsusən bu yaxınlarda açılışı olmuş Bakı-Tbilisi-Qars dəmir yolunun perspektivləri və qardaş Türkiyənin naxçıvanlı sahibkarlara göstərəcəyi logistika dəstəyi də ixrac potensialını artıran amillərdəndir.

Vurğulanıb ki, 28 oktyabr 2017-ci il tarixdə Türkiyənin İqdır şəhərində Azərbaycan və Türkiyə respublikalarının İqtisadiyyat nazirliklərinin nümayəndələrinin və digər dövlət orqanlarının rəsmilərinin iştirakı ilə keçirilmiş Türkiyə-Azərbaycan İş Forumu da hər iki ölkənin biznes ictimaiyyətini məlumatlandırmaq məqsədi daşıyıb. Belə ki, tətbiq ediləcək güzəştli ticarət rejiminə əsasən Naxçıvan Muxtar Respublikasından illik 100 milyon ABŞ dolları həcmində məhsulun Türkiyə Respublikasına ixracı idxal rüsumlarından azad ediləcəkdir.

Diqqətə çatdırılıb ki, bu güzəştlər yalnız muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarına şamil ediləcəkdir. İxrac əməliyyatlarında təcrübəyə malik olmayan kiçik və orta sahibkarlıq subyektlərinin muxtar respublikada dövlət dəstəyi ilə yaradılmış və ixrac sahəsində ixtisaslaşmış "Naxçıvan Məhsulları" MMC-nin imkanlarından istifadə edə biləcəklərini qeyd edən Famil Seyidov tətbiq olunan güzəştli ixrac rejiminin iki qardaş ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə, ticarət dövriyyəsinin artırılmasına, iş adamları arasında işgüzar əlaqələrin inkişafına və xalqlarımızın rifahına xidmət edəcəyinə əmin olduğunu bildirib.

Çıxışının sonunda sahibkarlar adından onlara göstərilən qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirən iqtisadiyyat naziri sahibkarları bu imkandan maksimum səviyyədə istifadə etməyə çağırıb.

Tədbirdə çıxış edən Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulluğunun ticarət müşaviri Yaşar Kapusuz qəbul edilən bu qərarın ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi üçün ilk addım olduğunu bildirib, naxçıvanlı sahibkarların bu imkanlardan faydalanacağına əminliyini ifadə edib.

Daha sonra nazirliyin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin müdiri Emin Zeynalov və Sahibkarlığın inkişafı şöbəsinin müdiri Mircavid Tağızadə çıxış edərək Naxçıvan məhsullarının Türkiyə Respublikasına güzəştli şərtlərlə ixrac olunması və bu sahədə fəaliyyətin tənzimlənməsi qaydaları haqqında məlumat veriblər.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

**Əli CABBAROV**

## Yeni inzibati bina inşa olunur

Bu gün Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayonlarda müasir binalar tikilir. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirib. Böyük təcrübə sahibi olan Naxçıvan inşaatçıları öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında yerinə yetirirlər.

Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülür. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişib.

Gündən-günə gözəlləşən muxtar respublikamızın paytaxtında ötən günlərdə "Araz" Elm-İstehsalat Birliyi, Bitkilərin Mühafizəsi və Toxumçuluq İdarəsi üçün yeni binanın inşasına başlanılıb. Naxçıvan şəhərinin Xətai məhəlləsində inşa edilən bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Binanın zirzəmisində yeməkxana, mətbəx, laboratoriyalar, anbar yerləşəcək. Birinci mərtəbədə Bitkilərin Mühafizəsi və Toxumçuluq İdarəsinin, 2-ci və 3-cü mərtəbələrdə isə "Araz" Elm-İstehsalat Birliyinin işçiləri üçün iş otaqları, akt zalı, kitabxana və digər otaqlar yerləşəcək.

Hazırda inzibati binanın təməlində beton-qəlib işləri görülür.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il iyulun 27-də imzaladığı Sərəncamın icrası ilə əlaqədar ali təhsil ocaqlarında tələbələrlə mütəmadi görüşlər təşkil olunur.***

## Naxçıvan Müəllimlər İnstitutunda tələbələrlə görüş təşkil edilib



Tədbiri giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq adıçəkilən sərəncamın imzalanmasından sonra muxtar respublika Təhsil Nazirliyi tərəfindən görülən işlərin gənc müəllim kadrların yetişdirilməsinə verdiyi töhfədən bəhs edib.

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək Naxçıvan Müəllimlər İnstitutu ilə əməkdaşlıq çərçivəsində görülən işlərdən danışıb, nazirliyə hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələr üçün bütün imkanların səfərbər olunduğunu bildirib.

Təhsil naziri qeyd edib ki, kənd yerlərindəki təhsil müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər, stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib. Belə ki, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş, kənd yerlərindəki təhsil müəssisələrində yeni əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti davam etdirən 35 yaşadək gənc mütəxəssislər kommunal xidmətlərini ödəmək üçün 60 manat, rayon mərkəzindən 20 kilometrdən artıq məsafədə yerləşən ümumtəhsil müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində əməkhaqqına hər ay 100 manat məbləğində əlavələr ödənilir. Üçillik müddət bitdikdən sonra həmin və ya digər kənd məktəbində pedaqoji fəaliyyətini davam etdirən gənc mütəxəssislərə daha 2 il müddətində əməkhaqqına kompensasiya əlavə olunur. Eyni zamanda iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım ödənilir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 iyun tarixli Sərəncamı ilə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü və əməkhaqları artırılıb. Bununla yanaşı, bu ildən etibarən ucqar dağ kəndlərində pedaqoji fəaliyyətə başlayan gənc kadrların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə Ali Məclis Sədrinin tapşırığına əsasən ipoteka kreditlərinin verilməsi qaydalarında dəyişikliklər edilib. Yeni qaydalara görə 5 ildən artıq dağ kəndində müəllim kimi fəaliyyət göstərən pedaqoji profilli gənc kadrlara ipoteka kreditinin verilməsi nəzərdə tutulub. Bütün bunlar isə muxtar respublikamızda gənc müəllimlərə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Qeyd olunub ki, gənc kadrların işlə təminatı üçün muxtar respublikada dövlət qulluğuna qəbul imtahanları, eləcə də əmək yarmarkaları keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə keçirilən ənənəvi təhsil yarmarkası muxtar respublikanın, xüsusən də ucqar kəndlərin ümumtəhsil məktəblərinin pedaqoji kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynayır. Ötən müddət ərzində yüzlərlə gənc bu təhsil yarmarkasında iştirak edib və göndəriş alaraq bu gün də müəllim kimi fəaliyyət göstərir.

Vurğulanıb ki, müvafiq ixtisasların Təhsil Nazirliyinə hamiliyə verilməsi yüksək səviyyəli pedaqoji kadr hazırlığına böyük töhfə verir. Bu baxımdan həmin tələbələrin orta məktəblərdə təcrübə keçmələri təqdirəlayiq haldır. Təcrübə müddətində tələbələrə nazirlik, müvafiq təhsil şöbələri, eləcə də orta məktəblərin kollektivləri hərtərəfli köməklik göstərirlər. Əminliklə demək olar ki, Naxçıvan Müəllimlər İnstitutunun tələbələri gələcəkdə muxtar respublikanın təhsil ocaqlarında fəaliyyət göstərməklə bərabər, dövlət qulluqçusu kimi də effektiv iş və yüksək bacarıq nümayiş etdirə biləcəklər.

**Səbuhi HÜSEYNOV**

# Tütünçülük Kəngərlinin ənənəvi təsərrüfat sahələrindən olub

## *Bu sahənin inkişafı iqtisadiyyatda mühüm perspektivli istiqamətlərdən biri sayılır*

***Ortayaşlı insanların yaxşı xatirində olar ki, ötən əsrin səksəninci illərinin sonunadək Şərur və indiki Kəngərli rayonunda tütünçülük kənd təsərrüfatının ən geniş yayılmış sahələrindən biri olub. Hektarlarla əkin sahələrində yetişdirilən bu bitkinin tədarükü zəhmətkeş insanların əsas məşğuliyyəti sayılmaqla yanaşı, həm də kəndlinin əsl qazanc mənbəyi idi. Müasir dövrün düşüncəsi ilə baxsaq, bu, böyük zəhmət və əziyyət tələb edirdi. Ancaq, son nəticədə, qazancı da pis deyildi. Ona görə zəhmətli deyirəm ki, məhsul yetişdikdən sonra tütünün yaşıl yarpaqları bir yerə toplanar, ərazi məhdudiyyətindən hər kəs onu yaşadığı həyətyanı sahəsinə daşıyar, əllə sapa düzdükdən sonra qurutmaq üçün asqıya alardılar. Quruduqdan sonra isə ovulmaması üçün onu əl dəyməyən bir yerdə saxlayar, dövlət müəssisəsinə təhvil verənədək əzilməkdən, yanğından və sairdən qorumağa çalışardılar. Lakin 90-cı illərin tənəzzül dövrü digər analoji sahələr kimi, tütünçülüyün də inkişafının qarşısını aldı. Qısa müddətdə ölkəmizdə, eləcə də muxtar respublikamızda siqaret qıtlığı yaşansa da, sonradan bu boşluğu idxal məhsullar hesabına doldurmaq mümkün oldu. Nəticədə isə hər il milyonlarla valyuta xarici bazarlara axmağa başladı.***





Tütünçülüyün inkişafı ilə bağlı bəzən cəmiyyətdə birmənalı qarşılanmayan fikirlərə rast gəlinir. Kimisinə görə bu sahənin inkişaf etdirilməsi sağlamlığın mühafizəsi baxımından zərərlidir. Bu fikirlə biz də razılaşırıq. Ancaq məsələ ondadır ki, siqaretdən istifadə edənlər cəmiyyətdə hər zaman olub, bundan sonra da olacaq. Əgər məhsul özümüzdə yoxdursa, o zaman bunu kənardan idxal etmək məcburiyyətində qalacağıq. Bu zaman isə milyonlarla vəsait xaricə axacaq. Elə bunun nəticəsidir ki, bu il ölkə başçısının rəhbərliyi ilə keçirilən respublika müşavirəsində ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində kənd təsərrüfatı məhsulları istehsalının artırılması, xüsusilə ixracyönümlü sahələrin, o cümlədən Azərbaycanda kənd təsərrüfatının böyük potensiala malik, strateji əhəmiyyətli, iqtisadi cəhətdən səmərəli, ənənəvi və əməktutumlu istehsal sahələrindən olan tütünçülüyün dirçəldilməsi bir daha prioritet vəzifələrdən biri kimi vurğulanıb. Bu sahənin inkişafı ilə əlaqədar zəruri tədbirlərin həyata keçirilməsi barədə aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib. Prezident İlham Əliyev müşavirədəki nitqində bildirib ki, 2021-ci ilə qədər ölkəmizdə tütün istehsalı üçün əkin sahələri iki dəfə genişləndirilməlidir. İndiki 3200 hektardan, təqribən, 6 min hektara çatdırılmalıdır. Buna imkan var və aidiyyəti qurumlar bu işlərlə ciddi məşğul olmalıdır. Dövlətimizin başçısı qeyd edib ki, belə olan halda, orta məhsuldarlıq 2 ton götürülərsə, hər il Azərbaycanda 12 min ton quru tütün istehsal olunacaq və bu, ölkəyə böyük xeyir gətirəcək, valyuta xaricə getməyəcək, əksinə, ixrac imkanları yaranacaq.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" tütünçülüyün inkişafı sahəsində geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikasında da bu gəlirli sahənin inkişafı üçün lazımi addımlar atılır. Bu məqsədlə cari ildə Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərində təcrübə məqsədilə tütün əkini aparılıb. "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı tərəfindən rayonun həmin kəndlərində əkin keçirilib. Sahələrdə, əsasən, Virciniya, Oriental və İzmir tütün sortlarından istifadə olunub. Bir neçə gün bundan əvvəl isə burada Tütün Yetişdirmə Təsərrüfatı fəaliyyətə başlayıb. Təsərrüfatın ərazisində istixanalar, yeraltı su anbarı, tütün qurutma yeri və anbarlar yaradılıb. Hələlik bu günədək müəssisədə 11 tondan çox quru tütün istehsal olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri oktyabrın 28-də adıçəkilən təsərrüfata gələrək burada yaradılmış şəraitlə tanış olub, lazımi tapşırıq və tövsiyələrini verib.

Təcrübə məqsədilə rayonda əkilmiş tütün sortlarından gələcək illərdə muxtar respublikanın digər bölgələrində də istifadə olunacağı gözlənilir.

Tütünçülükdən söz düşmüşkən, bu məlumatları da oxucularımızla bölüşmək istərdik. Aparılan statistik təhlillərə görə, dünyada gün ərzində satış dəyəri, təxminən, 4 milyard dollar olan tütün ticarətindən illik qazanc 1 trilyona çatır. Tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizini təşkil etsə də, ən gəlirli sahələr arasında yer alır.

Tütün iqtisadi əhəmiyyətinə görə ölkəmizdə pambıqdan sonra ikinci texniki bitki hesab olunur. Keçmiş SSRİ dövründə Azərbaycanda geniş təşəkkül tapmış və ölkənin kənd təsərrüfatı sahəsində əhəmiyyətli yerə malik olmuş aqrar sahələrdən biri tütünçülük idi. Respublikamız tütün istehsalına görə Moldova və Ukraynadan sonra 3-cü yeri tuturdu. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda tütünçülük çox sürətlə inkişaf etdirilmiş, bu sahənin böyük sənaye potensialı yaradılmışdır. 1970-ci illərdə Azərbaycanda, təxminən, ildə 25 min ton tütün istehsal olunub. 1980-ci ildə isə tütün istehsalı 60 min tona çatdırılıb. 1986-cı ildə ölkəmizdə 16,7 min hektar sahədən rekord miqdarda – 65 min ton tütün istehsal olunub. Tütün istehsalı yüksək rentabelliyə malik olduğuna görə Azərbaycanın 21 rayonunda bu sahə inkişaf etdirilib.

Mütəxəssislərin bildirdiyinə görə, ölkəmizin təbii-iqlim şəraiti 1 hektar sahədən 35-37 sentner keyfiyyətli tütün alınmasına imkan verir. Xüsusilə yaz və payız aylarında iqlimin isti olması yüksəkkeyfiyyətli məhsul alınması üçün əlverişlidir. Mütəxəssislərə görə, ölkəmizdə ən keyfiyyətli məhsul Şəki-Zaqatala bölgəsində və Naxçıvan Muxtar Respublikasında əldə olunur.

Bunu da xatırlatmaqda fayda var ki, Sovetlər Birliyi dağılandan sonra Dünya Bankı ilə birlikdə aqrar sektorla bağlı layihələrin işlənməsinə, treninqlər aparılmasına, kreditlər verilməsinə başlandı. Bu zaman tütünçülük sektoru arxa planda qaldı. Dünya Bankının ekspertləri səbəb kimi tütünün sağlamlığa zərərini göstərir və bunu siqaretə qarşı mübarizədə addım kimi qələmə verirdilər. Ona görə də tütünçülüyə yardımlar, kreditlər ayrılmadı və bu sahədə tənəzzül başladı. Əvəzində ABŞ-da tütün istehsalı və ixracı xeyli artdı. Təbii ki, bu sahədən götürülən gəlirlər də. ABŞ kimi ölkədə siqaretə qarşı aparılan mübarizəyə baxmayaraq, tütün istehsalının nəinki azalmadığını, hətta artdığını nəzərə alsaq, Dünya Bankının bu yanaşması başqa mətləblərdən xəbər verir.

Bəli, tütün çox böyük biznesdir. Bu gün bir çox ekspertlər inkişaf etmiş ölkələrin tütündən yüz milyardlarla gəlir əldə etdiyini nəzərə alıb bu sahədə qlobal monopoliya yaratmaq cəhdinə xoş baxmırlar. Hazırda dünya bazarında həmin ölkələrin istehsalı olan siqaretlərin ucuz olması da bu monopoliyanı gücləndirən amillər sırasında yer alır. Bu isə onunla bağlıdır ki, həmin ölkələrdə yetişdirilən tütün genetik modifikasiyaya məruz qalaraq daha çox məhsuldarlığa malikdir. Ona görə də muxtar respublikamızda bu ənənəvi sahənin inkişaf etdirilməsi daxili bazarı idxaldan asılılıqdan qurtarmaq, xaricə axan valyutanın qarşısını almaq, eyni zamanda ölkəmizə, muxtar respublikamıza valyuta qazandırmaq baxımından çox böyük əhəmiyyət daşıyır. Şübhə etmirik ki, tezliklə muxtar respublika iqtisadiyyatında tütün sektorunun çəkisi ciddi ölçüdə artacaq, bu sahənin inkişafı həm də yüzlərlə yeni iş yerinin yaranmasına səbəb olacaq.

**Səbuhi HƏSƏNOV**

# Torpaq mülkiyyətçiləri dövlət qayğısına cavab olaraq uğurlarını ildən-ilə artırırlar

***Şərur rayonunda iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq intensiv amillər hesabına artırılır, aqrar sahənin davamlı inkişafı təmin edilir. Təkcə bu ilin doqquz ayında 102 milyon 223 min 100 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,8 faiz çoxdur.***



Cari ilin məhsulu üçün ötən ilin payızında və bu ilin yazında 17 min hektardan çox müxtəlif bitkilər, o cümlədən 3 min 598 hektar buğda, 546 hektar arpa əkilmişdi. Becərmə tədbirləri aqrotexniki tələblərə uyğun aparıldığından sahələrdə bol məhsul hasilə gətirilib. Biçinə də vaxtında və tam hazırlıqla başlanılıb, bu mühüm kampaniya mütəşəkkilliklə yekunlaşıb, istehsal olunan məhsul 13 min 171 ton, orta məhsuldarlıq isə 31,8 sentner olub. İstehsalçı yığılan taxılın satışı və emalı üçün də heç bir problemlə qarşılaşmır. Çünki arpa və buğda dövlət tərəfindən kəndlini təmin edən münasib qiymətə satın alınır, qalanı rayonda fəaliyyət göstərən 7 dəyirmanda üyüdülür və çörək sexlərində bişirilərək istehlak olunur.

Şərurun torpaq mülkiyyətçilərinin kartof istehsalı və tədarükü sahəsində də yaxşı ənənələri var. Son illər bölgədə kartofçuluğa marağın daha da artması müşahidə olunur. Bu ilin yazında 1031 hektar sahəyə keyfiyyətli toxum basdırılmışdı ki, bu da ötənilki rəqəmdən, təxminən, 300 hektar çoxdur. Əkinlər yüksək aqrotexniki səviyyədə aparıldığından bol məhsul yetişdirilməsinə nail olunmuş, tarlalardan 15 min 396 ton kartof yığılmışdır. Məhsulun bir hissəsi istehsalçının illik ehtiyacı üçün götürülmüş, yaxud satış üçün bazara çıxarılmış, qalanı isə soyuducu anbarlara təhvil verilmişdir.

Bu il rayonda tərəvəz əkini sahələri də genişləndirilərək 1814 hektara çatdırılmışdır. 1237 hektar qarğıdalı sahəsində artıq biçin başa çatmış, hektardan orta hesabla 81 sentner olmaqla, 10 min tondan artıq qarğıdalı dəni yığılmışdır. Meyvə bağlarından, tərəvəz sahələrindən toplanan məhsul da artımla qeydə alınır.

Aparılan meliorativ tədbirlər nəticəsində Arazqırağı kəndlərdə şoranlaşmaya və çəmənləşməyə məruz qalmış 3 min 528 hektar torpaq sahəsinin 516 hektarında qrunt sularının səviyyəsi aşağı salınıb ki, bu da əlavə torpaq sahələrinin əkinəyararlı hala salınmasına imkan yaradıb. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən hüquqi və fiziki şəxslərə 600 min manat dəyərində qırxadək müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar güzəştli şərtlərlə satılıb.

Şərur rayonu muxtar respublikamızda heyvandarlığın inkişafı sahəsində də böyük potensiala malik olan bölgələrdəndir. Aparılmış əsaslı aqrar islahatlar rayonda heyvandarlığın inkişafı üçün geniş imkanlar yaratmışdır. Əsas diqqət mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, baytarlıq xidmətinin yüksəldilməsinə yönəldilmişdir. Hazırda rayonda iribuynuzlu malların sayı 37 min başa qədərdir, 135 min baş xırdabuynuzlu heyvan vardır. 2017-ci ilin 9 ayında diri çəkidə ət istehsalı 5 min 336,7 ton, süd istehsalı 22 min 954 ton olmuşdur. Ötən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 2 faiz, süd istehsalı 1,5 faiz artmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalı və tədarükü sahəsində əldə olunan uğurlar, ilk növbədə, bu sahədə çalışanların fədakar əməyi sayəsində qazanılır. Torpaq mülkiyyətçiləri və fermerlər dövlətimizin onlara göstərdiyi qayğıdan ruhlanaraq bu uğurları daha da artırmaq əzmindədirlər.

Bu gün Şərurda kənd təsərrüfatı sahəsində əldə edilən nailiyyətlərin artan xətt üzrə inkişafına əsaslanıb demək olar ki, rayonda bu sahə yüksəliş mərhələsindədir. Aqrar sahəyə dövlət qayğısının bəhrələri də göz önündədir. Daha kəndli taleyin ümidinə buraxılmayıb. Odur ki, vaxtilə asan qazanc dalınca digər yerlərə üz tutanlar artıq doğma torpaqda məskunlaşmağa üstünlük verirlər. Hər kəs dövlət qayğısından yetərincə faydalanır, sahibi olduğu torpaqla rifah halını daha da yaxşılaşdırmağa çalışır.

**Elman MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Baytarlıq Xidməti və "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin təşkilatçılığı ilə Ordubad rayonundakı Sabirkənddə "Payız mövsümündə arıxanalarda baytarlıq tədbirlərinin aparılması və arıxanaların qışlamaya hazırlanması" mövzusunda müşavirə keçirilib.*

# Arı ailələrinin qışlamaya hazırlığı müzakirə edilib

Müşavirəni Ordubad Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini Zamiq Babayev açaraq tədbirin məqsəd və vəzifələri barədə iştirakçılara məlumat verib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Vəli Novruzov "Arıxanaların zoobaytar qaydalara uyğun qışlamaya hazırlığının əhəmiyyəti", "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri Vaqif Məmmədov "Arıçılıqda qabaqcıl təcrübələrin əhəmiyyəti", Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşı Süleyman Rüstəmov "Muxtar respublikada istehsal edilən arıçılıq məhsullarının sertifikatlaşdırılmasının əhəmiyyəti", Dövlət Baytarlıq Xidmətinin əməkdaşı Qadir Fərhadov "Payız mövsümündə arıxanalarda baytarlıq tədbirlərinin aparılmasının əhəmiyyəti" mövzularında çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" muxtar respublika əhalisinin etibarlı ərzaq məhsulları ilə təminatında mühüm rol oynayır.

Bildirilib ki, regionumuzun iqlim şəraiti bu sahədə yüksəkkeyfiyyətli məhsul istehsalına imkan verir. Uzun illərin təcrübəsi, bu sahəyə göstərilən dövlət qayğısı arıçılığa marağı daha da artırıb. İqtisadi cəhətdən xeyli sərfəli olan bu sahənin inkişafında sərəncamın xüsusi əhəmiyyət daşıdığını vurğulayan mütəxəssislər Ordubad rayonunda da arıçılığın geniş perspektivləri olduğunu diqqətə çatdırıblar.

Qeyd olunub ki, ekoloji sağlam bal məhsulu əldə etmək üçün arıçıların maarifləndirilməsi, arıxanaların zoobaytar qaydalara uyğun olaraq qışlamaya hazırlanması, baytarlıq tədbirlərinin aparılması qarşıda duran mühüm məsələlərdir.

**Abbas SEYİD**

# İtaliyanın Sienna Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetində təlim keçirlər

*İtaliyanın Sienna Universitetinin əməkdaşları Naxçıvan Muxtar Respublikasında səfərdədirlər.*






Qonaqlar səfərin ilk günü Heydər Əliyev Muzeyində oldular. Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Muzeydə görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid olan müxtəlif tarixi sənədlər toplanılıb. Hazırda muzeydə 4600-dən çox eksponat vardır. İndiyədək muzeyi 300 minə yaxın tamaşaçı ziyarət edib.

Sonra Naxçıvan Günəş Elektrik Stansiyasında olan qonaqlara bildirilib ki, 22 meqavat gücündəki stansiya 2015-ci ilin dekabr ayında istifadəyə verilib. Stansiyada 2016-cı ildə 30 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunub.

Sienna Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetinin tədris imkanları ilə maraqlanıb, universitetin Memarlıq və mühəndislik fakültəsinin müəllim və tələbələri üçün mühazirələr oxuyublar. Professor Paolo Kontinin "Məişət binalarında alternativ enerji mənbələrindən istifadə imkanları" və digər mövzulardakı məruzələrində muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunmasında alternativ enerji mənbələrindən istifadə imkanları diqqətə çatdırılıb, bu sahədə görülən işlərin məmnunluq doğurduğu vurğulanıb, mövzu ilə bağlı suallar cavablandırılıb. Həmçinin Sienna Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetinin Elektroenergetika mühəndisliyi ixtisasının tələbələrinə Naxçıvan Muxtar Respublikasındakı Günəş Elektrik Stansiyasının iş prinsipi və quruluşu barədə təcrübi dərs keçiblər. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsində isə Coğrafiya müəllimliyi ixtisasının tələbələri ilə təcrübi məşğələlər aparılıb.

Sonra qonaqlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Nuh Peyğəmbərin türbəsini ziyarət edib, Naxçıvan Biznes Mərkəzi və Heydər Əliyev Sarayı ilə tanış olublar. Səfər çərçivəsində Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası ilə tanışlıq da xüsusi maraq doğurub.

* * *

İtaliyanın Sienna Universiteti əməkdaşlarının Naxçıvan Muxtar Respublikasına səfəri ərəfəsində onlarla görüşüb, qəzetimiz üçün müsahibə aldıq. Nümayəndə heyətinin rəhbəri ***Paolo Konti*** dedi: "Azərbaycanın dilbər guşəsi olan Naxçıvan müasirliyi və tarixi abidələri ilə bizdə xoş təəssürat yaratdı. Naxçıvanlılar gülərüz və qonaqpərvərdirlər. Naxçıvandakı inkişaf, buradakı səliqə-sahman və abadlıq çox xoşumuza gəldi. Buranın təmiz havası, gözəl təbiəti, güclü infrastrukturu var. Alternativ və bərpaolunan enerji mənbələrindən istifadə sahəsində mühüm işlər görülür. Müqayisə edim ki, hazırda İtaliyada və bir çox Avropa ölkəsində alternativ və bərpaolunan enerji mənbələrində istehsal olunan elektrik enerjisi ümumi istehsalın 10 faizini, Naxçıvan Muxtar Respublikasında isə 60 faizindən çoxunu təşkil edir. Mən buna, sadəcə, həsəd aparıram".



Nümayəndə heyətinin üzvü ***Tommaso Kolonna***: "Azərbaycanın çox böyük əhəmiyyətə malik bölgəsi olan Naxçıvan Muxtar Respublikasına səfərimiz bizə bu qədim diyar haqqında ətraflı məlumat almaq imkanı verir. Xüsusilə də təhsil sisteminin müasir avadanlıqlarla təmin olunması, muxtar respublikanın ərazisində müalicəvi suların mövcudluğu Naxçıvanın yüksək inkişafının və turizm potensialının göstəricisidir. Səfər çərçivəsində muxtar respublikanın bir sıra tarixi yerlərində və mədəniyyət müəssisələrində olduq. Bunların içərisində ən yaddaqalanı "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi idi. Həmçinin Naxçıvan Günəş Elektrik Stansiyası bizdə yüksək təəssürat yaratdı. Bir daha şahidi olduq ki, Naxçıvanda alternativ enerji mənbələrindən istifadə sahəsində həyata keçirilən tədbirlər nümunə gücündədir".



***Fahimeh Riyazi***: "Naxçıvan Muxtar Respublikasına gəlişimizdən məmnunluq duyduq. Olduğumuz ünvanlarda bizi yüksək səmimiyyətlə qarşıladılar. Muxtar respublikanın 50 yaşlı təhsil ocağında müasir informasiya texnologiyalarının tətbiqi, müəllim-tələbə münasibətləri, yeni təlim üsullarından istifadə, tələbələrin elm, bilik öyrənməyə böyük maraqları, onların doğma diyarın tarixi, mədəniyyəti, abidələri barədə bilgiləri bu təhsil ocağında tədrisin günün tələbləri səviyyəsində qurulduğunu təsdiq edir. Səfərimiz çərçivəsində muxtar respublikanın bir sıra mədəniyyət obyektlərində olduq. Heydər Əliyev Sarayında fəaliyyət göstərən Rəsm Qalereyasında sərgilənən əsərlər yüksək zövqlə işlənib. Regionun tarixi abidələri, təbiət mənzərələri, müasirliyə qovuşmuş yaşayış məntəqələri, inkişafı rəsm əsərlərində öz əksini tapıb. Naxçıvanlı sənətkarların öz doğma yurd yerlərinə bağlılığını bu əsərlərdə qabarıq hiss etmək mümkündür".



*Qeyd edək ki, İtaliyanın Sienna Universitetinin əməkdaşlarının təlimləri noyabr ayının 4-dək davam edəcək.*

✍ **Muxtar MƏMMƏDOV**

***Azərbaycanın qabaqcıl ali təhsil ocaqlarından olan, müasir təhsil tarixinə mühüm nailiyyətləri ilə imza atan Naxçıvan Dövlət Universiteti 50 illik yubileyini qeyd edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun bu münasibətlə imzaladığı 2017-ci il 14 yanvar tarixli Sərəncam universitetin Azərbaycanda maarifçiliyin və ali təhsil sisteminin inkişafında, ixtisaslı kadrların yetişdirilməsində, elmi və ali təhsil mühitinin formalaşmasındakı roluna verilən yüksək qiymətdir. Yubiley təntənəsini yaşayan ali məktəbin sevincinə daha bir sevinc də qatılıb. Universitet əməkdaşlarının bir qrupu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2017-ci il 31 oktyabr tarixli sərəncamları ilə "Tərəqqi" medalı və "Əməkdar müəllim", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2017-ci il 1 noyabr tarixli Sərəncamı ilə isə bir qrup əməkdaş "Əməkdar müəllim", "Əməkdar mədəniyyət işçisi" və "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adları ilə təltif olunub. Onların ürək sözlərini oxucularımıza da çatdırırıq.***

# Universitet əməkdaşları yubileyi ikiqat sevinclə qeyd edirlər



***Surə SEYİD – Tədris işləri üzrə prorektor, dosent, "Tərəqqi" medallı:*** – Doğma universitetimizdə mənimlə birgə çalışan həmkarlarımın təltif olunması, bu sevincdən mənə də pay düşməsi qürurverici bir hadisədir. Təltif olunanlar sırasında qocaman müəllimlərimizlə yanaşı, mənim də adımın olması Naxçıvanda aparılan dövlət gənclər və dövlət qadın siyasətinin parlaq təzahürüdür. Naxçıvan Dövlət Universitetinin məzunu olmağımla fəxr edir və əmin edirəm ki, bundan sonrakı fəaliyyətimlə də ulu öndər Heydər Əliyevin ideallarına sadiq qalacaq, ölkəmiz və muxtar respublikamız üçün yüksəkixtisaslı kadrların hazırlanmasında əlimdən gələni əsirgəməyəcək, elmi mühitimizə yeni töhfələr verəcəyəm.

***Məmmədəli RƏHİMOV – Tələbə İdman Klubunun sədri, dosent, "Tərəqqi" medallı:*** – Muxtar respublikamızda təhsil və idman dövlət qayğısı ilə əhatə olunmuş sahələrdəndir. Bunu 38 ildir ki, çalışdığım Naxçıvan Dövlət Universitetinin timsalında da görmüşəm. Bu illər ərzində gənc nəslin fiziki tərbiyəsinə göstərilən qayğı sayəsində universitetimizin yetirmələri muxtar respublikamızı və Azərbaycanımızı müxtəlif miqyaslı yarışlarda müvəffəqiyyətlə təmsil ediblər. Buna həm də yaradılan şərait, fiziki tərbiyə və idman sahəsində çalışanların əməyinin yüksək qiymətləndirilməsi nəticəsində nail olunub. Cənab Prezidentimizin əməyimi yüksək qiymətləndirərək "Tərəqqi" medalı ilə mükafatlandırması, ümumilikdə, kollektivə göstərilən diqqət və qayğının nəticəsidir. Minnətdarlığımı çatdırmaqla yanaşı, onu da deməyi borc bilirəm ki, fiziki tərbiyə sahəsində pedaqoji kadrların və yüksək dərəcəli idmançıların hazırlanmasında bundan sonra daha əzm və inamla çalışacaq, əlimdən gələni əsirgəməyəcəyəm.



***Məhəmməd HACIYEV – Ümumi riyaziyyat kafedrasının müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi:*** – Yaşadığımız bayram ruhlu günlərimiz universitetimizin 50 illik tarixi inkişaf yolu keçərək Azərbaycanın aparıcı ali təhsil ocaqlarından birinə çevrilməsi ilə bağlı bir çox dəyərli anları xatırladır. Naxçıvan Dövlət Universitetinin istər yaranması, istərsə də tanınmış ali təhsil ocağı kimi formalaşması ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ümummilli liderin təhsil strategiyası muxtar respublikamızda Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilir.



Doğma universitetimizin yaradılmasının 50 illiyi mənim və digər müəllim həmkarlarım üçün ikiqat bayramdır. Belə ki, yubiley ərəfəsində bir çox əməkdaşımız dövlət mükafatlarına, fəxri adlara layiq görülüb. Bu sevinci mən də yaşayıram. Təltif olunanlar adından dərin minnətdarlığımı bildirirəm.

***Sevinc ORUCOVA – Pedaqogika və psixologiya kafedrasının müdiri, dosent, Azərbaycan Respublikasının Əməkdar müəllimi:*** – Naxçıvan Dövlət Universitetinin məzunu və universitetin Pedaqogika və psixologiya kafedrasında iyirmi ildən artıq fəaliyyət göstərən ziyalı kimi yubiley çərçivəsində elmi-pedaqoji fəaliyyətimin yüksək qiymətləndirilməsi məndə hədsiz sevinc və qürur hissi doğurub. Elmə, təhsil işçilərinə göstərilən bu böyük qayğıya görə dövlətimizin başçısına minnətdaram. Mənə göstərilən bu etimadı öz fəaliyyətimlə, elmi göstəricilərimlə doğrultmağa çalışacağam.



***İlhamə MƏMMƏDOVA – filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi:*** – 1967-ci ildən böyük inkişaf yolu keçən universitetimiz son 22 ildə müqayisəolunmaz dərəcədə özünün əsl intibah dövrünü yaşayır. Təhsilin və tədrisin keyfiyyəti, nizam-intizamı, müasir tələblərə cavab verən iş şəraiti, yaradılan xarici əlaqələri ilə dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən çox-çox irəlidə gedir. Bütün bu həqiqətləri mən xarici ölkələrdə "TEMPUS" proqramlarında iştirak edərkən öz gözlərimlə gördüm. Fəxr edirəm ki, mən azərbaycanlıyam və belə bir nüfuzlu tədris ocağında İngilis dili və tərcümə kafedrasının müəllimi kimi çalışıram.



Bu günlərdə "Əməkdar müəllim" kimi yüksək ada layiq görülməyimə görə muxtar respublika rəhbərinə öz dərin minnətdarlığımı bildirirəm.

***Seyfəddin EYVAZOV – Azərbaycan ədəbiyyatı kafedrasının dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi:*** – Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik ideologiyasının muxtar respublikada qətiyyətlə davam etdirilməsi bütün sahələrdə olduğu kimi, təhsil quruculuğu sahəsində də öz bəhrələrini verməkdədir. Bunu 50 yaşını qeyd etdiyimiz Naxçıvan Dövlət Universitetinin timsalında da görmək olar. Azərbaycan Respublikası Prezidentinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları yubiley çərçivəsində bütünlükdə pedaqoji kollektivimizin fəaliyyətinə verilən yüksək qiymətdir. Bu, təbii ki, digər təltif olunanlar kimi məni də ürəkdən sevindirdi. Bu mükafat bizi daha uğurlu pedaqoji fəaliyyət göstərməyə ruhlandırmaqla yanaşı, üzərimizə daha böyük məsuliyyət qoyur.



✍ **Fatma BABAYEVA**
✍ **Nail ƏSGƏROV**

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq bu il mayın əvvəllərindən 56-60 yaşlı əhalinin kütləvi müayinə tədbirləri, dispanserizasiyası həyata keçirilib.***

# Profilaktik tibbi müayinələr başa çatıb

Müayinələr Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında tərtib edilmiş iş qrafiki əsasında terapevt, cərrah, ginekoloq, stomatoloq, oftalmoloqlar tərəfindən həyata keçirilib, ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələr təşkil edilib. Müayinə olunanlarda qanda xolesterinin və şəkərin miqdarının təyin edilməsi üçün rayon mərkəzi xəstəxanalarına və Naxçıvan Şəhər Poliklinikasına portativ aparatlar verilib və stript testi ilə təmin edilib. Feldşer-mama məntəqələri, həkim ambulatoriyaları, Naxçıvan şəhərində isə sahələr üzrə 56-60 yaşlılarda həkim müayinələri və xolesterinin miqdarının təyini aparılıb.

Bütövlükdə, aksiya müddətində muxtar respublika üzrə qeydiyyatda olan 56-60 yaşlı əhalinin 2 min nəfərdən çoxu tibbi müayinədən keçirilib, onların 14,9 faizi dispanser qeydiyyatına götürülüb. Həmçinin 10 min 847 nəfərdə xolesterin müayinəsi aparılıb.

Dispanser qeydiyyatına alınan xəstələrə müalicə təyin edilib. Xolesterini yüksək olan xəstələrə məsləhətlər verilib, dərman müalicəsi yazılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Həkim məsləhəti

## Ürəyinizi qoruyun, çünki orda sevdikləriniz var

***Statistik məlumatlara əsasən son illər bütün dünyada, o cümlədən Azərbaycanda ürək xəstəliklərindən əziyyət çəkənlərin sayı artmaqdadır. Ən təhlükəlisi isə bu xəstəliyin cavanlaşmasıdır. Əgər əvvəllər ürək-damar xəstəlikləri üçün qorxulu yaş həddi 55-60 arası idisə, indi bu rəqəm xeyli aşağı düşüb. Görək ürəklə bağlı müxtəlif narahatlıqlarla üzləşməmək üçün nə edə bilərik? Mövzu ilə əlaqədar müsahibimiz Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin ürək-damar cərrahı Cabir Gülmalıyevdir.***

***– Bildiyimiz kimi, hər hansı bir xəstəliyin yaranmasının müxtəlif əlamətləri və səbəbləri var. Ürək xəstəlikləri ilə bağlı nə deyə bilərsiniz?***

– Əvvəlcə onu qeyd edim ki, sinədə yanma, göynəmə hissinin olması, xüsusilə də fiziki iş zamanı və yaxud yoxuşa hərəkət etdiyimiz zaman daha da gərginləşməsi ürək xəstəliklərinin əlamətidir. Bu halları ürək infarktının xəbərçisi hesab etmək olar. Belə olduqda mütləq həkimə müraciət etmək lazımdır. Bundan əlavə, ürək narahatlıqlarının yaranması multifaktorialdır. Yəni onun bir neçə səbəbi ola bilər. Məsələn, tütün məmulatlarından istifadə, şəkərli diabet xəstəliyi, oturaq həyat tərzi ilə əlaqədar olaraq orqanizmdə piylənmənin getməsi, yəni ağır çəki də ürək xəstəliklərinə səbəb ola bilər. Xəstəliyin faktorlarından biri də genetika ilə bağlıdır ki, onun bizim qidalanmağımızla, həyat tərzimizlə heç bir əlaqəsi yoxdur. O, irsidir. Yəni birincidərəcəli ailə fərdlərimizdə belə bir narahatlıq aşkar olunubsa, bizim də bu cür halla rastlaşmağımız mümkündür.

***– Bu qəbildən olan narahatlıqların yaranması və yaxud kəskinləşməsinə fəsil dəyişikliklərinin təsiri varmı?***

– Fəsil dəyişikliyinin xəstəliyin yaranmasına ciddi təsiri olmasa da, narahatlıqların üzə çıxmasında, kəskinləşməsində qismən təsiri var. Məsələn, simptomlar qış aylarında özünü daha çox göstərir. Bunun da səbəbi soyuğun təsiri ilə əlaqədar damarlarda daralmanın daha çox müşahidə edilməsidir. Hər bir insan bunu nəzərə almalıdır.



***– Fəsadlarla qarşılaşmamaq üçün qidalanmada nələrə diqqət etməliyik?***

– Qeyd etdiyim kimi, ilk olaraq zərərli vərdişlərdən qəti şəkildə imtina etməliyik. Sonrakı mərhələdə isə heyvan mənşəli yağlardan uzaq durmaq, duz və yağdan mümkün qədər az istifadə etmək lazımdır. Eyni zamanda meyvə və meyvə quruları ilə qidalanmaq yararlıdır. Bu sahədə mən xüsusilə yerli məhsullarımızı məsləhət görərdim. Çünki Naxçıvanın ekoloji saf iqlimi, təmiz suyu var. Belə şəraitdə yetişdirilən meyvə məhsullarının tərkibi də yüksək müalicəvi əhəmiyyətə malikdir.

***– Xəstəliklərin yüngül formadan nisbətən ağırlaşmağa doğru müxtəlif növlərinin olduğu məlumdur. Ürək narahatlıqlarının necə? Onun daha çox hansı növünə rast gəlinir?***

– İnsanlarda ürək xəstəliyinin ən çox yayılmış növü damar tıxanıqlığı, yəni qan dövranının pozulmasıdır. Daha aydın desək, uşaqlıqdan damar divarlarında mövcud olan köpük hüceyrələri illər keçdikcə az-az xolesterol adlandırdığımız yağların yığılması nəticəsində damar divarında plak deyilən sərtliklər əmələ gətirir. Bunlar zaman keçdikcə partlaya bilir ki, bunun da nəticəsində damar içərisində tutulmalara səbəb olaraq qan dövranını pozur. Xəstəlik özünü həm kəskin infarkt, həm də sinədə ağrı şəklində göstərə bilər. Onun qarşısı vaxtında alınmasa, daha ağır nəticələrə səbəb ola bilər.

Ürək-damar sistemində son diaqnostik üsul olaraq angioqrafiyadan istifadə edilir. Damar tıxanıqlığından əziyyət çəkən xəstə angioqrafiya olunur və bunun nəticəsində damarlardakı tıxanma faizi, mövcud vəziyyət aşkarlanır ki, həmin diaqnoza əsasən də müalicə metodu tətbiq edilir. Damarlardakı tıxanıqlıq balon və stend müalicəsi ilə açılır. Açıla bilməyən damarlar isə açıq ürək əməliyyatı ilə dəyişdirilir.

Bundan əlavə, uşaqlıqda keçirilmiş revmatizm xəstəlikləri ilə bağlı olaraq ürəkdəki qapaq sisteminin xəstəlikləri, yəni qapaqlarda qalınlaşma və ya çatışmazlıqla bağlı ürək funksiyasının pozulması, şiş, ürəkdən çıxan ana damarlarda aorta və ya ağciyər aortalarında daralma kimi növlərə də rast gəlinir. Doğuşdan olan ürək xəstəliklərinə isə uşaqlarda və yeniyetmələrdə təsadüf olunur.

Sadalanan xəstəliklər vaxtında aşkar olunaraq müdaxilə edilməzsə, yekun mərhələ ürək çatışmazlığına gətirib çıxara bilər.

***– Bəzən ürək döyüntülərimiz kəskin şəkildə sürətlənir. Bu hadisə ürəyimizlə bağlı hansısa bir narahatlığa işarə ola bilərmi?***

– Ürək döyüntülərimizin sürətlənməsi emosional faktorlarla, fiziki hərəkətlərlə də əlaqəli ola bilər. Bunlar istisna olduğu hallarda, hərəkətsiz vəziyyətdə belə, hadisə baş verirsə, mütləq həkimə müraciət etmək lazımdır. Müdaxilə etməzdən əvvəl xəstənin sutkalıq ritm analizi çıxarılır və nəticəyə uyğun müalicə edilir.

***– Sağlam bir həyat yaşamaq üçün insanlara məsləhətləriniz...***

– Ürək əzələdir. Bütün digər əzələlər kimi, ürək də aktiv işləməlidir. Hərəkətsizlik bütün orqanizmdə, eləcə də ürəkdə durğunluğa səbəb olur ki, bunun nəticəsində insanın sağlamlığında müxtəlif pozulmalar yarana bilər. Ürək üçün ən xeyirli fiziki aktivlik üzgüçülük, qaçış sayılır. Sağlamlığını qorumaq istəyən insan özünü stresdən, həyəcanlanmalardan qorumalıdır. Kifayət qədər yuxu və istirahət ürəyin sağlamlığı üçün çox vacibdir. Bu, ürək-damar sisteminin işini yüngülləşdirir, orada yaranan gərginliyi azaldır. Öz sağlamlığını qorumaq istəyən insanlar ildə bir dəfə mütləq kardioloqun müayinəsindən keçməyi unutmamalıdırlar. Bu, ürək-damar xəstəliklərinin vaxtında aşkar olunması və müalicəyə başlanması üçün vacibdir.

*Bəli, əziz oxucular, biz insanlar, adətən, həkimə müraciətdə xeyli gecikirik. Səhhətimizlə bağlı keçirdiyimiz narahatlıqlara əhəmiyyət vermir, onun öz-özünə keçib-getməsini gözləyirik. Bəzən belə də olur, yəni ağrı zamanla öz-özünə, yaxud da ağrıkəsici və digər vasitələr hesabına azalır. Biz də heç bir narahatlıq olmadığını qəbul edib, həkimə müraciətdə laqeydlik göstəririk. Lakin bu ağrıların hansısa bir ciddi narahatlığa səbəb ola biləcəyini düşünmürük. Bəzi hallarda isə həmin ağrılarla yenidən üzləşərək həkimə müraciət edirik ki, bu zaman artıq gec ola bilər. Ürək xəstəliklərinin ilkin əlamətləri haqqında sizə qısa məlumat verdik. Son sözümüz odur ki, ürəyinizi qoruyun, çünki orda sevdikləriniz var.*

**Fatma BABAYEVA**

## *“Hekayələr”* kitabının müzakirəsi keçirilib



***Naxçıvan Dövlət Film Fondunda Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin iştirakı ilə görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin “Hekayələr” kitabının müzakirəsi olub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunan “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan kitabın müzakirəsi ilə bağlı keçirilən tədbiri giriş sözü ilə kollecin direktoru Günay Əliyeva açıb. O, adıçəkilən sərəncamın gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə kollecin tələbəsi Atikə Həsənli “Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı” mövzusunda məruzə edərək bildirib ki, görkəmli yazıçı-dramaturq, publisist Cəlil Məmmədquluzadə ədəbiyyat, incəsənət sahəsindəki fəaliyyəti ilə xalqın maariflənməsi idealına xidmət edib.

Vurğulanıb ki, görkəmli ədib həm də milli mətbuatımızın inkişafı və intişarında göstərdiyi mühüm xidmətlərlə yadda qalıb.

Kollecin tələbəsi Səkinə İsmayılova “Cəlil Məmmədquluzadə hekayələr ustasıdır” mövzusunda çıxış edib. Qeyd olunub ki, görkəmli yazıçı Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustadı kimi tanınıb. Cəlil Məmmədquluzadənin ədəbiyyat tariximizə bəxş etdiyi “Poçt qutusu”, “Pirverdinin xoruzu”, “Saqqallı uşaq”, “Buz” və digər hekayələri həm də uşaq ədəbiyyatının ən sanballı nümunələridir.

Diqqətə çatdırılıb ki, böyük sənətkarın hekayələri klassik bədii səviyyəyə malikdir. Hekayələrdə kəskin sarkazm, şiddətli ifşaedici gülüş vardır. İncə lirizm və tərbiyəvi yumordan yoğurulmuş bu hekayələrin hamısında cəmiyyətdəki çatışmazlıqlar, gerilik və fanatizm əks olunub. Həmin hekayələr milli-ictimai geriliyin aradan qaldırılmasına, milli şüurun və Azərbaycançılıq ideologiyasının təşəkkülünə, demokratik düşüncə tərzinin formalaşmasına xidmət edib.

Sonra tələbələr “Hekayələr” kitabında yer alan bədii nəsr nümunələrini qiraət ediblər, onları maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1.Xarici tələbələrlə iş üzrə dekanlıq

***Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün***

1.Musiqişünaslıq və metodika
2.Fortepiano
3.Riyazi analiz
4.Şərq dilləri və ədəbiyyatı

***Kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir***

1. Kimya-professor – 1 yer
2. Kitabxanaçılıq – müəllim – 1 yer (0,5 ştat)
3. Xalq çalğı alətləri – müəllim – 1 yer (0,5 ştat)
4. İnformatika-müəllim – 1 yer (0,5 ştat)
5. Meliorasiya və STTM – müəllim – 1 yer (0,5 ştat)
6. Memarlıq – müəllim – 1 yer
7. Nəqliyyat mühəndisliyi – müəllim – 1 yer (0,5 ştat)
8. Hüquq fənləri – müəllim – 2 yer
9. İngilis dili və onun tədrisi metodikası – müəllim – 2 yer
10. Ümumi riyaziyyat – müəllim – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer
11. Tibbi klinik fənlər – müəllim – 1 yer (0,5 ştat)
12. Pedaqogika və psixologiya – müəllim – 1 yer
13. Musiqi təlimi – dosent – 1 yer; müəllim – 1 yer
14. İqtisadiyyat – müəllim – 1 yer (0,5 ştat); müəllim – 1 yer
15. Bəstəkarlıq – müəllim – 1 yer
16. Mühasibat uçotu və maliyyə – müəllim – 1 yer
17. Əczaçılıq və stomatologiya – müəllim – 1 yer (0,5 ştat); baş müəllim – 2 yer
18. Şərq dilləri və ədəbiyyatı – müəllim – 1 yer
19. Bələdiyyə və turizm – müəllim – 1 yer
20. Arxiv işi, muzeyşünaslıq və abidələrin qorunması – dosent – 1 yer; baş müəllim – 1 yer
21. Təməl tibb fənləri – dosent – 1 yer
22. Fəlsəfə və sosial iş – baş müəllim – 1 yer
23. Coğrafiya – dosent – 1 yer
24. Fizika və energetika – baş müəllim – 1 yer
25. Botanika – dosent – 2 yer
26. Ümumi təbabət və gigiyena – baş müəllim – 1 yer
27. Orkestr alətləri və dirijorluq – professor – 1 yer

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi.***
***Telefon: (036)545-23-66/10-01***

## Boks birinciliyində mükafatçılar məlum olub

Şahtaxtı kənd tam orta məktəbinin idman zalında Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Gənclər Birliyi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə yeniyetmələr arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında boks üzrə açıq birincilik keçirilib.



Əvvəlcə rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov və Təhsil Şöbəsinin əməkdaşı İbrahim Məmmədov çıxış edərək idmana göstərilən dövlət qayğısı, bu sahədə əldə olunan nailiyyətlər və idmanın bu növünün inkişafı istiqamətində görülən işlər haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Gərgin mübarizə şəraitində keçirilən görüşlərdə Ramin Babayev, Hüseyn Qəmbərli, Sənan Seyidov, Sinan Əbilov, Ucal Musayev və Tural Babayev mükafat qazanıblar.

Sonda qalib və fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

## Futbol üzrə yarışın final mərhələsi başa çatıb

***Uşaq futbolunun inkişafı ilə əlaqədar Şahbuz Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin təşkil etdiyi ümumtəhsil məktəblərinin 10-11 yaşlı şagirdləri arasında keçirilən rayon birinciliyinə yekun vurulub.***



Yarış zonalar və bu zonaların qalibləri arasında final mərhələsi olmaqla iki mərhələdə keçirilib. Kolanı, Şahbuzkənd və Şahbuz şəhər futbol meydançalarında keçirilən birinciliyin final mərhələsində Biçənək, Şahbuzkənd və Şahbuz şəhər 1 nömrəli tam orta məktəblərinin komandaları qarşılaşıb.

Gərgin və maraqlı keçən görüşün sonunda Şahbuzkənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası ikinci, Biçənək kənd tam orta məktəbinin komandası isə üçüncü olub.

Qaliblərə Şahbuz Rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 886